**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının təsvirinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin xüsusi rütbələrinə uyğun geyim formasının və fərqlənmə nişanlarının müəyyən edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının təsviri təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının verilmə qaydalarını, normalarını və istifadə müddətlərini təsdiq etsin;

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin olunması üçün Azərbaycan Respublikasının dövlət büdcəsində maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutsun.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 28 iyun 2000-ci il
451

Azərbaycan Respublikası Prezidentinin
2000-ci il 28 iyun tarixli, 451 nömrəli Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

ƏLAVƏ

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının T Ə S V İ R İ

### 1. ALİ RƏİS HEYƏTİ – GENERALLAR

#### 1.1. Furajkalar

1.1.1. Parad furajkası oval formalı olub, polis generalı üçün polad rəngli, daxili xidmət generalı üçün tünd yaşıl rəngli qabardin parçadan tikilir, üst və alt hissədən, dövrədən və günlükdən ibarət olur. Alt və üst hissələrin kəsiyi qırmızı haşiyə ilə əhatə olunur. Dövrənin qabaq hissəsində, tən ortada kokarda, onun yanlarında isə palıd yarpaqları şəklində qızılı tikmə aparılır. Günlüyün üst hissəsinə qara laklı süni dəri, aşağı hissəsinə isə qara rəngli zamş və ya yun parça çəkilir. Günlüyün qabaq hissəsində qızılı sapla palıd yarpaqları şəklində naxış tikilir və furajkanın dövrəsinə bitişik hissəsində iki forma düyməsinə hörülmüş qızılı qaytan birləşir. Hər iki tərəfdən dövrənin altına bir-birindən 2 sm aralıda 1,2 sm diametrində bir cüt torşəkilli basmadüymə bərkidilir (şəkil 9.2, 10.2).

1.1.2. Gündəlik furajka polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli olur və öz konstruksiyasına görə eyni ilə parad furajkası kimidir (şəkil 9, 3, 10,3).

#### 1.2. Səhra furajkası

Səhra furajkası polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli olur. Üstü yarımdairəvidir, yanlardan 18 sm enində, 7 sm uzunluğunda tikilən günlük qabaq hissədə dəyirmiləşir.

Furajkanın üstlüyü altı hissədən ibarətdir, bir-birinə tikişlə birləşir. Həmin tikişlərin mərkəzinə 1,5 mm diametrində plastmas düymə tikilir. Furajkanın aşağı hissəsindən 7 sm yuxarıda sağ və sol tərəflərdən iki açıq basmadüymə bərkidilir. Günlüyün üstlüklə birləşən yerinə sağ və sol tərəflərdən kiçik forma düymələri tikilir, onlara eni 1,5 mm olan öz parçasından tikilmiş lent birləşir.

Üstlüyün qabaq hissəsinin ortasında kokarda bərkidilir. Furajkanın arxasına ölçünü nizamlamaq üçün iki hissədən ibarət basmacıqlı lent tikilir (şəkil 9.4, 10.4.). Səhra furajkasının əvəzinə xüsusi rənglərlə boyanmış xallı parçadan tikilmiş kamuflyaj furajka verilə bilər.

#### 1.3. Qaragül xəzindən qulaqlı isti papaq

Papaq dövrədən və təpədən ibarətdir. Dövrə boz rəngli təbii qaragül xəzindən, təpə isə həmin rəngli mahuddan hazırlanır. Dövrənin qabaq hissəsinin ortasına kokarda bərkidilir (şəkil 9.1, 10.1).

#### 1.4. Parad-çıxış paltosu

Palto polad rəngli yun parçadan hazırlanır, iki bortludur. Dörd 22 mm-lik düymə ilə bağlanır. Həmin düymələr şaquli vəziyyətdə iki cərgə, paralel tikilir. Ciblər kəsikdir, qapaqla örtülür. Birinci aşağı düymə qapağın alt hissəsi ilə bərabərdir. Qalan üç düymə 10-12 sm məsafəyə bölünür. Paltonun qolları üç hissədən ibarətdir – üst qol, alt qol və manjet. Manjetin eni 14 sm-dir. Paltonun kürək tərəfi iki hissədən ibarətdir, ortada 38 – 40 sm-lik kəsiklə qurtaran tikiş olur. Paltonun belində üç hissədən ibarət kəmər yerləşir. Onun iki kiçik hissəsi 9 sm ölçüsündədir, bel hissəsində tikişə salınır, üçüncü hissəsi ortada iki düymə ilə kiçik kəmərciyə birləşir. Paltonun bortları, yaxalığı, üstlüyü, manjeti və kəmərcikləri qırmızı kantla haşiyələnir, çiyin hissəsinə paqonları bərkitmək üçün parça tikilir. Yaxalığın qurtaracağında qırmızı mahuddan olan dördbucaqlı petlitsanın üç kənarı və üstündəki palıdı yarpaq qızılı sapla tikilir.

Paltonun bortuna, yaxalığına, cibinə, manjetinə, alt hissəsinə və kəmərciklərinə kantın içərisi ilə və ona paralel 1,8 sm aralı üst tikiş vurulur.

Paltonun uzunluğu döşəmədən 40 sm hündür olur (şəkil 1.1, 2.2).

### 1.4.1. Gündəlik palto

Generallar üçün gündəlik palto eyni ilə parad-çıxış paltosu kimidir.

### 1.5. Plaş-palto

Plaş-palto polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli yun parçadan hazırlanır, bir bortludur, cibləri çəpinədir. Qolları üç hissədən, üst qolu isə iki hissədən ibarətdir. Üst qolun orta tikişinin alt hissəsindən 9 sm yuxarıda 4 sm enində, 9 sm uzunluqda öz parçasından kəmərcik tikilir və 22 mm-lik plastmas düymə ilə bərkidilir. Plaş-palto dörd 22 mm-lik plastmas düymə ilə bağlanır, düymələr görünməzdir. Kürək tərəfi iki hissədən ibarətdir, orta tikiş aşağı hissədə kəsiklə qurtarır. Tikişin uzunluğu 38 – 40 sm-dir. Bel hissəsində öz parçasından tikilmiş, plastmas toqqa ilə birləşən 4 sm enində kəmər olur. Bortları, yaxalığı, kəməri, qolları, cibi və aşağı hissəsi 0,5 sm enində üst tikişlə tikilir. Bortdakı ikinci tikiş 8 sm enindədir və cibin alt hissəsi ilə bərabərlikdə qurtarır. Yaxalığın qurtaracağında qırmızı mahuddan dördbucaqlı petlitsanın üç kənarı və üstündəki palıdı yarpağı qızılı sapla tikilir. Çiyin hissəsinə paqonları bərkitmək üçün parça tikilir.

Plaş-paltonun uzunluğu döşəmədən 45 sm hündür olur (şəkil 1.3, 2.3).

### 1.6. Xəzli gödəkçə

Xəzli gödəkçə aşılanmış qoyun dərisindən hazırlanır, qəhvəyi rəngli olur. Yaxalığı qaragül xəzindən tikilir. Qolları iki tikişli və düzdür. Cibləri çəpinədir. Qabaq hissəsi zəncirbəndlə bağlanır. Uzunluğu pencəkdən 10 sm aşağıdır (şəkil 1.2, 2.2).

### 1.7. İsti şalvar

İsti şalvar polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli su keçirməyən parçadan tikilir, içərisinə isti altlıq qoyulur. Kəmər yeri 55 mm-dir, kəməri saxlamaq üçün ilgəklər tikilir. Balaq hissələrinə düymə ilə açılıb-bağlanan qaytan bərkidilir.

### 1.8. Plaş-örtük

Plaş-örtük polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli rezinləşdirilmiş parçadan tikilir. Yaxası açıqdır, bağlanan başlığı var. Qabaq hissəsi görünməyən düymələrlə bağlanır. Qolların çıxarılması üçün kəsik ciblər qoyulur.

### 1.9. Plaş-örtüyü gəzdirmək üçün qayış

Qayış qəhvəyi rəngli dəridən tikilir, uzun və qısa çiyinlikdən, eləcə də birləşdirici hissələrdən ibarətdir. Yığılmış halda gəzdirmək üçün uzun və qısa qayışlardan xüsusi ilgəklər hazırlanır.

### 1.10. Parad çıxış kostyumu

Kostyumun pencəyi dörd forma düyməsi ilə bağlanmaqla açıq yaxalıqlı, bədənə yatan bir bortlu, polis generalı üçün polad, daxili xidmət generalı üçün tünd yaşıl rəngli qabardin parçadan tikilir. Döş cibləri üstdən qoyulmadır, bir düyməli nazik uclu qapaqla bağlanır, yan cibləri içəri tikilir, bir düyməli nazik iclu qapaqla örtülür. Pencəyin qolları üç tikişli olmaqla üst qoldan, alt qoldan və manjetdən ibarətdir. Arxa hissəsi iki tikişli olur, orta tikiş kəsiklə qurtarır. Kəsik bel hissəsindən 6 sm aşağıdan başlanır. Ciblərin qapaqlarının üzərində 3 mm-lik üst tikiş keçir. Yaxalığı və manjeti qırmızı kantla haşiyələnir. Pencəyin yaxalığında dairəvi qırmızı kant, ondan 0,5 sm aralı qızılıda sapla tikilmiş xətt keçir, yaxalığın sağ və sol künclərində qızılı sapla palıd yarpağı toxunulur. Manjetlərdə də dairəvi qırmızı kant, ondan 0,5 sm aralıda qızılı sapla tikilmiş xətt keçir. Manjetlərin aşağı hissəsindən 5 sm yuxarıda 14 sm uzunluğunda qızılı sapla palıd yarpaqları tikilir.

Kostyumun şalvarı düz biçimlidir, xırda plastmas düymə və metal qarmaqla bağlanır. Kəmər yeri 40 mm-dir, kəməri saxlamaq üçün ilgəklər tikilir. Arxa sağ hissəsində qapaqlı cibi var. Yan tikişində qırmızı kant olur, sağ və sol tərəfində bir-birindən 0,5 sm aralıda 2 sm enində lampas tikilir (şəkil 1.4, 2.4).

### 1.11. Gündəlik kostyum

Gündəlik kostyum polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli qabardin parçadan tikilir, öz konstruksiyasına görə parad-çıxış kostyumu ilə eynidir. Parad-çıxış kostyumundan onunla fərqlənir ki, qızılı sapla palıd yarpağı ancaq yaxalıqda olur (şəkil 1.5, 2.5).

### 1.12. Səhra kostyumu

Səhra kostyumu polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli parçadan tikilir. Gödəkçə açıq yaxalıqlıdır, yuxarıdan aşağıya qədər görünməz düymələrlə bağlanır, döş hissəsində və hər iki qolunda üstdən qoyulma ciblidir, şalvarın içinə salınır. Qolları manjetlidir, bir düymə ilə bağlanır.

Şalvarı düz biçimlidir 6 ədəd düymə ilə bağlanır. Bel hissəsində kəmər gəzdirmək üçün 60 mm-lik ilgəklər qoyulur. Kəmərin tikişindən 20-25 sm aşağıda hər iki tərəfdən qabaq hissələrdə 18 sm uzunluğu, 16 sm eni olan və 5 sm-lik örtüklə bağlanan ciblər qoyulur. Şalvarın diz hissəsində 15 sm enində iki tikişin arasında dizliklər tikilir. Balaq hissəsinə üç plastmas düymə ilə bağlanan 2 sm enində qaytan bərkidilir.

Çiyin qayışı, səhra çəkməsi və zolaqlı mayka ilə geyilir.

Çiyin qayışı bel kəmərinin arxa hissəsinə bərkidilir, sağ paqonun altından keçir, sol tərəfdə şalvar qayışının 1-ci və 2-ci ilgəklərinin ortasına birləşdirilir (şəkil 1.8, 2.8).

Səhra kostyumu əvəzinə xüsusi rənglərlə boyanmış xallı parçadan tikilmiş kamuflyaj kostyum verilə bilər.

### 1.13. Köynək

Köynək döş hissələrində üstdən tikilmiş iki cibdən ibarət, açıq yaxalıqlı, yüksək keyfiyyətli parçadan tikilir. Parad-çıxış kostyumu üçün ağ, gündəlik kostyum üçün boz və zeytun rəngli olur. Köynəyin yan tərəfləri rezinlidir, şalvarın üstündən salınır. Qabaq hissəsi axıra qədər düymələrlə bağlanır. Qolları kəsikli və manjetlidir. Kürəyi köbəlidir. Mövsümə uyğun olaraq qolları uzun və ya qısa olur (şəkil 1.6., 1.7., 2.6., 2.7.).

### 1.14. Qalstuk

Qalstuk ipək parçadan tikilir, parad-çıxış kostyumu üçün qara və tünd yaşıl, gündəlik kostyum üçün isə boz və zeytun rəngli olur. Trapesiya formalıdır, əsas hissədən başlayıb iti ucluq ilə qurtarır, açılıb-bağlanan rezin ilgəyi vardır.

### 1.15. Əlcək

Əlcək beşbarmaqlı olub, parad-çıxış forması üçün ağ, gündəlik forma üçün qəhvəyi rəngli zərif əlcək dərisindən tikilir. Astarlı və ya astarsız olur.

### 1.16. Şərf

Şərf trikotaj və ya toxunma olur, parad-çıxış forması üçün ağ rəngli, gündəlik formada isə polis generalı üçün boz, daxili xidmət generalı üçün zeytun rəngli olur. Ölçüsü 24,5 x 116 sm-dir. Ucları saçaqlıdır.

### 1.17. İdman kostyumu

İdman kostyumu gödəkçə və şalvardan ibarətdir, zərif toxunuşlu parçadan tikilir. Gödəkçənin yaxası zəncirbəndlə bağlanır.

### 1.18. Mayka

Mayka ağ rəngli və göy zolaqlı pambıq iplikdən hazırlanır. Ağ maykalar qolsuz, zolaqlı maykalar isə qollu və ya qolsuz tikilir. Maykaların qabaq hissəsi arxasına nisbətən açıq olur.

### 1.19. Tuman

Tuman qara və tünd göy rəngli zərif pambıq parçadan tikilir. Bel hissəsinə rezin bağ salınır. Uzunluğu dizdən bir qədər yuxarı olur.

### 1.20. İsti alt paltarı

İsti alt paltarı ağ və ya mavi rəngli pambıq parçadan tikilir. İsti köynək və tumandan ibarətdir. Üzəri zərif toxunuşlu, astarı bir qədər xovlu olur. Tumanın aşağı hissəsi və köynəyin qolları manjetlidir.

### 1.21. Corab

Corab qara və tünd göy rəngli pambıq iplikdən toxunulur, qısa boğazlıdır. Boğazının yuxarı hissəsinə rezin tikilir.

### 1.22. Şalvar üçün göndən kəmər

Kəmərin eni 35 mm-dir, qara və ya qəhvəyi rəngli göndən hazırlanır. Baş hissəsində qızılı rəngli metaldan toqqası olur, ortasından mil taxılır. Kəmərin üzərində ölçüləri nizamlayan yuvalar açılır.

### 1.23. Akselbant

Akselbant sarı ipək sapla toxunulur, parad-çıxış kostyumu üçün nəzərdə tutulmuşdur. Yuxarı ucu sol çiyindəki paqonun altına tikilir, aşağı hissəsi isə özündən toxunulmuş ilməklə pencəyin yuxarı düyməsinə bərkidilir (şəkil 9.5.,10.5.).

### 1.24. Ayaqqabı

Ayaqqabı qara rəngli dəridən tikilir, tikilmiş burun, üz, yan, arxa və altlıq hissədən ibarətdir. Yanlarda içəri hissədən rezin sıxacaqlar tikilir. İçlik və burun altlığı dəridən hazırlanır. Dabanlar göndən və rezindən vurulur. Aşağı hissəsi rant üsulu ilə bərkidilir. Çəkmənin içərisinə dəri altlıq qoyulur.

### 1.25. Səhra çəkməsi

Səhra çəkməsi qara rəngli yuftdan tikilir, hündür boğazlı olur. Üz, yan, burun hissələrindən, uzun dilcikdən və altlıqdan ibarətdir. Üzün qabaq kənarlarında qaytan keçirmək üçün yuvacıqlar açılır. Çəkmənin astarına pambıq parça, altına isə tökmə üsulu ilə hazırlanan dabanlı altlıq yapışdırılır.

### 1.26. İdman ayaqqabısı

İdman ayaqqabısı altı naxışlı rezin, üstü qalın sıx toxunma parçadan ibarət olub tökmə üsulu ilə hazırlanır. Üzərində qaytan keçirmək üçün deşiklər açılır.

### 1.27. Şapşap

Şapşap düz rezin altlıqdan, üstü yarımbağlı və ya çarpaz keçirilmiş tünd rəngli gön qayışdan ibarətdir. İçərisinə içlik yapışdırılır.

### 1.28. Paqonlar

Parad-çıxış kostyumuna qızılı, polis generalı üçün gündəlik geyim formasına boz, daxili xidmət generalı üçün zeytun rəngli paqonlar nəzərdə tutulur. Onlar yan və aşağı hissələrdən düz, yuxarı hissədən isə yarımdairəvi şəkildə olaraq, qırmızı kantla əhatə edilir. Bərkidilib-çıxarılan olur.

Paqonların üzərində qızılı sapla səkkizguşəli ulduzlar və yarımdairən şəklində palıd yarpaqları toxunulur və Azərbaycan Respublikasının Dövlət gerbi həkk olunmuş düymələr bərkidilir (şəkil 9.5,10.5).

### 1.29. Kokarda

Kokarda qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır. Kokardanın ortasında Azərbaycan Respublikası bayrağının fonunda Dövlət gerbi əks olunur, ölçüsü 4 x 3 sm-dir, kokardanı papağa bərkitmək üçün arxasına nazik metal tutacaq lehimlənir (şəkil 9.5,10.5).

### 1.30. Düymələr

Düymələr qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır. Düymənin üzərində Azərbaycan Respublikasının Dövlət gerbi həkk olunur. Diametrləri 22 mm və 17 mm-dir (şəkil 9.5,10.5).

### 1.31. Qalstuk sıxacı

Sıxac qızılı rəngli metal lövhəcikdən ibarətdir. Üzərində səkkizguşəli ulduz həkk olunur. Ölçüsü 4 x 60 mm-dir.

## 2. SIRAVİ, KİÇİK, ORTA VƏ BÖYÜK RƏİS HEYƏTİ

### 2.1. Parad furajkası

Parad furajkası öz konstruksiyasına görə general furajkası ilə eynidir. Yalnız günlüyün üzərindəki naxışın olmaması, həmçinin sıravi və rəis heyəti üçün nəzərdə tutulan kokardaları ilə fərqlənir. Polis heyəti üçün boz, daxili xidmət heyəti üçün tünd yaşıl rəngli yarımyun, böyük rəis heyəti üçün isə yun parçadan tikilir (şəkil 11.2.,12.2).

### 2.2. Orta və böyük rəis heyəti üçün gündəlik furajka

Gündəlik furajka eyni ilə parad furajkası kimidir, daxili xidmət heyəti üçün zeytun rəngli olur.

### 2.3. Sıravi və kiçik rəis heyəti üçün gündəlik furajka

Gündəlik furajka polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli kostyum parçasından tikilir. Dövrədən, günlükdən ibarətdir. Günlüyün sağından sol hissəsinə qədər dövrənin yuxarısından 3 sm aşağı öz parçasından açılıb-bağlanan qulaqlıq tikilir. Günlüyün qurtaracağında iki forma düyməsi tikilir və onlara qızılı rəngli qaytan salınır.

Dövrənin qabaq hissəsinin ortasında kokarda bərkidilir (şəkil 11.3,12.3).

### 2.4. Qulaqlı isti papaq

Qulaqlı isti papaq dövrədən ibarət olub, boz rəngli qoyun xəzindən tikilir. Papağın üstü dörd zolaqlıdır, günlüyün və papaq ardının iç hissəsi boz mahud parçadan tikilir. Papağın təpəsi dibdən və dairədən ibarət olub, arasına pambıq qoyularaq, astarlıq parça ilə sırınır. Qabaqdan tən ortaya kokarda bərkidilir (şəkil 11.1,12.1).

### 2.5. Sıravi, kiçik, orta və böyük rəis hey ətinin səhra və kamuflyaj kostyumu, furajkası və çəkməsi

Səhra kostyumu, furajka və çəkmə eyni ilə generallar üçün nəzərdə tutulan kimidir (şəkil 3.8, 4.7, 5.8, 6.7).

### 2.6. Parad-çıxış paltosu

Parad-çıxış paltosu dörd forma düyməsi ilə bağlanmaqla bir bortlu, vatin altlıqlı, belə yapışıqlı, polis heyəti üçün boz, daxili xidmət heyəti üçün mavi rəngli mahud parçadan tikilir. Yaxalığın qurtaracağına qırmızı mahud parçadan dördbucaqlı petlitsa vurulur və onun üzərinə emblem bərkidilir. Yanlarda iki tərəfdən qapaqlı ciblər qoyulur. Arxası kəsiklidir. Belində üç hissədən ibarət kəmərcik bərkidilir. Kəmərciyin yan hissələri tikilir, orta hissəsi isə iki forma düyməsi ilə bağlanır. Qollar iki tikişlidir və qurtaracağına iki forma düyməsi tikilir. Paltonun ətəyi qatlanır, astarı axıra qədərdir. Döş hissəsinin sol tərəfində daxili cib tikilir. Çiyin hissəsinə paqonları bərkitmək üçün parça tikilir.

Paltonun uzunluğu yerdən 40 sm hündür olur (şəkil 3.1, 4.1).

### 2.7. Plaş-palto

Plaş-palto polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli kostyumluq parçadan tikilir. Bir bortludur, dörd

forma düyməsi ilə bağlanır, yaxalığı açıqdır, yaxalığın qurtaracağına qırmızı mahud parçadan dördbucaqlı petlitsa vurulur və onun üzərinə emblem bərkidilir. Qolları düz, üç tikilişlidir. Yanlardan çəpinə cibləri var. Kürək hissəsinin ortasından tikiş keçir və kəsiklə qurtarır. Üst qolun orta tikişinin alt hissəsindən 9 sm yuxarıda 4 sm enində, 9 sm uzunluqda öz parçasından kəmərcik tikilir və 22 mm-lik plastmas düymə ilə bərkidilir. Bel hissəsinə öz parçasından kəmər bağlanır (şəkil 3.4, 4.3).

**2.8. İsti qış gödəkçəsi**

İsti qış gödəkçəsi polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli plaşlıq parçadan tikilir. İçərisi, üzəri ipək astarlıqdan ibarət olan, açılıb-çıxarılan qalın isti altlıqdan, yaxalığı xəz dəridən ibarətdir. Qolu düz biçimlidir. Aşağı yanlarının hər iki tərəfindən çəpəki biçimli, döş hissədə hər iki yandan qapaqlı cib tikilir. Yaxası 6 plastmas düymə ilə bağlanır. Çiyninə paqon bərkidilməsi üçün parça tikilir (şəkil 3.2, 4.2).

**2.9. Parad-çıxış kostyumu**

Parad-çıxış kostyumu polis heyəti üçün boz, daxili xidmət heyəti üçün tünd yaşıl rəngli yarımyun, böyük rəis heyəti üçün isə yun kostyumluq parçadan tikilir. Pencəkdən və düz şalvardan ibarətdir. Pencək bir bortludur, dörd forma düyməsi ilə bağlanır, yaxası açıqdır, qolları düz və iki tikişlidir. Arxa hissəsində orta tikiş kəsiklə qurtarır. Döş hissəsində və ətəyin yan hissələrində üstdən tikilən, qapaqlı, dörd ədəd cib tikilir. İçərisi altlıq və astarlıq parçadan ibarətdir. Hər iki yandan döş hissədə içəri cib qoyulur. Yaxalığın sağ və sol aşağı hissələrinə sarı dəmir kantla haşiyələnmiş qırmızı mahuddan romb şəkilli petlitsa tikilir və onun üstünə emblem bərkidilir.

Kostyumun şalvarı da eyni parçadan, düz biçimli olur, hər iki yanına 2 mm enində qırmızı mahuddan kant tikilir. Bel hissəsində kəmər gəzdirmək üçün ilgəklər qoyulur, düymə ilə bağlanır, yanlardan kəsik ciblər, sağ arxa hissədə isə qapaqlı cib olur (şəkil 3.5, 4.4).

**2.10. Orta və böyük rəis heyəti üçün gündəlik kostyum**

Gündəlik kostyumun konstruksiyası parad kostyumu ilə eyni olub, yaxalıqdakı petlitsanın kantsız olması ilə fərqlənir (şəkil 3.6, 4.5).

**2.11. Sıravi və kiçik rəis heyəti üçün gündəlik kostyum**

Gündəlik kostyum polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli yarımyun parçadan tikilir. Yüngül gödəkçədən və şalvardan ibarətdir.

Gödəkçə bir bortludur, diametri 17 mm olan yeddi ədəd düymə ilə bağlanır. Döş cibləri üstdən qoyulma və qapaqlıdır, bir düymə ilə bağlanır. Yan cibləri çəpinədir. Ciblər kostyumun öz parçasından hazırlanır, kantla tikilir. Gödəkçənin aşağı hissəsi kostyumun öz parçasından tikilən üç hissəli kəmərciklə qurtarır. Həmin hissələr bir-birinə düymə ilə bağlanır. Qollar bir tikişlidir, aşağı hissələri manjetlə qurtarır və bir düymə ilə bağlanır. Kürək tərəfi iki hissədən ibarətdir, üst hissədə büzmə şəklində tikilən quraq olur, yanlardan iki köbə qoyulur. Çiyninə paqon bərkidilməsi üçün parça tikilir.

Şalvarların konstruksiyası orta və böyük rəis heyəti üçün nəzərdə tutulan kimidir (şəkil 5.6, 6.5).

**2.12. Köynək**

Köynək parad-çıxış kostyumu üçün ağ, polis hey ətinin gündəlik geyimi üçün boz və mavi, daxili xidmət heyətinin gündəlik geyimi üçün zeytun və açıq qəhvəyi rəngli köynək parçadan tikilir. Ətəyi düz, uzunqol və ya mövsümə görə qısaqol olur. Yaxası açıqdır, hər iki tərəfdən döş hissədə üstdən qoyulma, bir düymə ilə bağlanan qapaqlı ciblər var. Yaxası yuxarıdan aşağıya qədər 11 mm-lik plastmas düymələrlə bağlanır (şəkil 3.7, 4.6).

**2.13. Qalstuk**

Qalstuk iplik parçadan tikilir, parad-çıxış kostyumu üçün qara, tünd yaşıl, gündəlik kostyum üçün isə boz və zeytun rəngli olur. Trapesiya formalıdır, əsas hissədən başlayıb iti ucluq ilə qurtarır, açılıb-bağlanan ilgəyi olur.

**2.14. Şərf**

Şərf trikotaj və ya toxunma olur, parad-çıxış forması üçün ağ rəngli, gündəlik formada isə polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli olur. Ölçüsü 24,5 x 116 sm-dir. Ucları saçaqlıdır.

**2.15. Əlcək**

Əlcək beşbarmaqlı olub, parad-çıxış forması üçün ağ, gündəlik formada isə polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli iplik parçadan tikilir. Astarlı və ya astarsız olur.

**2.16. Mayka, tuman, corab, isti alt paltarı, şapşap, idman kostyumu və ayaqqabısı**

Eyni ilə generallar üçün nəzərdə tutulan kimidir.

**2.17. Şalvar üçün göndən kəmər**

Kəmər eyni ilə generallar üçün nəzərdə tutulan kimidir.

**2.18. Parad bel kəməri**

Parad bel kəməri qızılı rəngli metal və ipək saplardan toxunulur. Toqqası 5 x 4 sm ölçüdə qızılı rəngli metaldandır, üzərində palıd yarpaqların əhatəsində aypara, içərisində səkkizguşəli ulduz həkk olunur. Kəmərin eni 5 sm-dir, uzunluğu arxa tərəfdə bərkidilən qarmaq və ilgəklərlə nizamlanır.

**2.19. Xüsusi bel kəməri**

Xüsusi bel kəməri qara rənglidir, göndən tikilir. Toqqası 5 x 6 sm ölçüdə ağ metaldan hazırlanır. Eni 4,5 sm-dir. Ortasına iki mil taxılır, kəmərin üzərində ölçüləri nizamlayan iki paralel cərgədə yuvalar açılır.

Kəmərin sol tərəfində rezin dəyənək üçün yuvacıq və əl qandalları üçün futlyar, sağ tərəfində isə qobur və güllə darağı üçün qutu asılır (şəkil 16).

**2.20. Xüsusi ləvazimat**

Xüsusi ləvazimat Dövlət yol polisi əməkdaşları üçün nəzərdə tutulur, bel kəmərindən, çiyin qayışından və qoburdan ibarətdir. Ağ rəngli süni dəridən tikilir. Toqqası 5 - 6 sm ölçüdə ağ metaldan hazırlanır. Ortasına iki mil taxılır, kəmərin üzərində ölçüləri nizamlayan iki paralel cərgədə yuvalar açılır.

Kəmərin üzərinə onun uzunluğu boyu işığı əks etdirən parça yapışdırılır.

**2.21. Akselbant**

Akselbant eyni ilə generallar üçün nəzərdə tutulan kimidir və parad-çıxış kostyumu üçün nəzərdə tutulur (şəkil 16).

**2.22. Fıştırıq**

Fıştırıq plastik materialdan yayma-pres üsulu ilə hazırlanır.

**2.23. Ayaqqabı**

Ayaqqabı qara rəngli dəridən tikilir, üz, arxa, burun hissədən və altlıqdan ibarətdir. İçəri hissədən rezin sıxacaqlar və ya qaytanla bağlanır. Üz hissəsinin altlığı pambıq parçadan, yanlarının altlığı isə dəridən tikilir.

Ayaqqabıya tökmə üsulu ilə hazırlanmış bütöv altlıq yapışdırılır. İçərisinə dəridən içlik qoyulur.

**2.24. Paqonlar**

Paqonlar parad-çıxış kostyumuna qızılı, polis hey ətinin gündəlik geyimi üçün göy, daxili xidmət heyəti üçün zeytun rəngli olur. Qızılı rəngli paqonların yan və aşağı hissələri düz, yuxarı hissəsi yarımdairəvi, göy və zeytun rəngli, paqonlar isə trapesiyavari olur.

Böyük rəis heyəti üçün nəzərdə tutulan paqonların üzərinə ulduzlar və palıd şəklində yarpaqları, sıravi, kiçik və orta rəis heyətinin paqonlarına isə ancaq ulduzlar və fərqlənmə nişanları bərkidilir (şəkil 11-14).

**2.25. Kokarda**

Kokarda 3 x 6 sm ölçülü, qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır. Kokardanın ortasında Azərbaycan Respublikasının Dövlət gerbi, yanlarında isə palıd yarpaqları əks olunur (şəkil 9-14).

**2.26. Düymələr**

Düymələr qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır, 22 mm-lik düymənin üzərində aypara və səkkizguşəli ulduz, 14 mm-lik düymənin üzərində isə ancaq səkkizguşəli ulduz həkk olunur (şəkil 16).

**2.27. Ulduzlar**

Ulduzlar qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır. Böyük rəis heyəti üçün ulduzların ölçüsü 22 mm, orta rəis heyəti üçün isə 17 mm diametrində olur. Ulduzların arxasına paqona bərkitmək üçün nazik metal tutacaq lehimlənir (şəkil 16).

**2.28. Kiçik rəis hey ətinin fərqlənmə nişanları**

Kiçik rəis heyəti üçün serjant lentləri qızılı rəngli metaldan hazırlanır, üzərində aypara və səkkizguşəli ulduz həkk olunur. Eni 10 mm, uzunluğu 50 mm-dir. Arxasına nazik metal tutacaq lehimlənir (şəkil 16).

**2.29. Emblem**

Emblem üzərində Azərbaycan Respublikasının Dövlət gerbi əks olunmaqla qızılı rəngli metaldan basma üsulu ilə hazırlanır (şəkil 16).

**2.30. Qol nişanları**

Nişanların üzərində Azərbaycan Respublikasının bayrağı, fəaliyyət sahəsindən asılı olaraq müvafiq xidmətlərin xüsusiyyətlərini əks etdirən fərqləndirici rəmzlər və adlar göstərilir.

Nişanlar göy parçadan hazırlanır (şəkil 16).

**2.31. Tədris müəssisələrinin müdavimləri**

Müdavimlər sıravi və kiçik rəis heyəti üçün nəzərdə tutulan geyim əmlak ilə tam təmin edilir. Onların parad-çıxış kostyumunun və gündəlik geyimlərinin sol qollarına çiyindən 12 sm aşağıda qol nişanları, 20 sm aşağıda isə müvafiq ölçülü göy rəngli parçanın üzərinə oxuduqları kursları əks etdirən 1 sm enində, 7 sm uzunluğunda araları 3 mm məsafə təşkil edən sarı rəngli lentlər tikilir.

Paqonlar göy və zeytun rəngli olur, formaları trapesiyavaridir. Paqonların üst hissəsində yan kənarlarından 6 mm aralı, uzunluğu boyu 0,5 sm enində iki paralel sarı lent çəkilir. Onların arasında paqonların aşağı kənarlarından 1,5 sm yuxarıda sarı metaldan hazırlanmış 2,5 sm ölçüdə «M» hərfi bərkidilir (şəkil 13).

## 3. Qadın sıravi,kiçik, orta və böyük rəis heyəti

**3.1.** Palto, isti qış gödəkçəsi, plaş-palto, səhra kostyumu, pencək, yüngül gödəkçə, şalvar, köynək, isti qulaqlı papaq və səhra furajkası öz konstruksiyasına və rənglərinə görə kişilər üçün tikilənlərlə eynidir, ancaq bağlanma üsulu sağdan soladır (şəkil 7, 8).

### 3.2. Parad-çıxış furajkası

Parad-çıxış furajkası polis heyəti üçün boz, daxili xidmət heyəti üçün tünd yaşıl rəngli parçadan tikilir. Üstü yastı günbəzə bənzər formalıdır, yanlardan keçən açılıb-bağlanan qulaqcıqlar furajkanın üstündən 5 sm aşağıda tikilərək qabaq hissəsində ensizləşir və günlük əmələ gətirir.

Furajkanın sağ və sol tərəfindən tikilən iki forma düyməsinə sarı rəngli qaytan, ortasına isə kokarda bərkidilir (şəkil 11.3, 12.3).

### 3.3. Orta və böyük rəis heyəti üçün gündəlik furajka

Furajka polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli parçadan tikilir. Öz konstruksiyasına görə parad-çıxış furajkası kimidir (şəkil 11.3, 12.3).

### 3.4. Sıravi və kiçik rəis heyəti üçün beret

Beret polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytun rəngli parçadan tikilərək dib, divar və kənarlardan ibarət olur. Dib oval formada olub, ortadan iki hissənin tikilməsindən ibarətdir. Ön tərəfdə ortadan kokarda bərkidilir (şəkil 13.5, 14.5).

### 3.5. Yubka

Yubka polis heyəti üçün boz, daxili xidmət heyəti üçün zeytuni rəngli yarımyun, böyük rəis heyəti üçün yun parçadan tikilir. Üç tikişlidir, aşağıya doğru enlənir. Arxada orta tikişin aşağı hissəsində bükük olur. Sol yan tikişdə ilgək qoyulur.

### 3.6. Uzunboğaz corab

Uzunboğaz corab tünd rəngli pambıq iplikdən hazırlanır, boğazı yuxarıya doğru enlidir.

### 3.7. İsti alt paltarı

İsti alt paltarı pambıq parçadan tikilmiş qollu mayka və tumandan ibarətdir.

### 3.8. Uzunboğaz çəkmə

Uzunboğaz çəkmə qara xrom dəridən tikilir, içərisi xəzli olur, yan hissədən zəncirbəndlə bağlanır. Altlığı məsaməli rezindən və dabandan ibarətdir.

### 3.9. Ayaqqabı

Ayaqqabı qara xrom dəridən tikilir, altlığı göndəndir. Dabana gön və rezin altlıq vurulur.

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində ali rəis heyəti üçün geyim formalarının təsviri

### 1. Polis generalı



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Qış geyim forması (xəzli gödəkcədə)
3. Yaz-payız geyim forması (plaş-paltoda)
4. Parad-çıxış geyim forması
5. Gündəlik geyim forması
6. Gündəlik yay geyim forması
7. Gündəlik yay geyim forması (qısaqol köynəkdə)
8. Yay səhra geyim forması (xüsusi kostyum)

Şəkil 1

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində ali rəis heyəti üçün geyim formalarının təsviri

### 2. Daxili xidmət generalı



| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1. Qış parad-çıxış geyim forması (isti paltoda) | 2. Qış geyim forması (xəzli gödəkcədə) | 3. Yaz-payız geyim forması (plaş-paltoda) | 4. Parad-çıxış geyim forması | 5. Gündəlik geyim forması | 6. Gündəlik yay geyim forması | 7. Gündəlik yay geyim forması (qısaqol köynəkdə) | 8. Yay səhra geyim forması (xüsusi kostyum) |

Şəkil 2

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində orta və böyük rəis heyəti üçün geyim formalarının təsviri

### 1. Polis



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Gündəlik qış geyim forması (isti gödəkcədə)
3. Dövlət Yol Polisi əməkdaşlarının gündəlik qış geyim forması (isti gödəkcədə)
4. Yaz-payız geyim forması (plaş-paltoda)
5. Parad-çıxış geyim forması
6. Gündəlik geyim forması
7. Gündəlik yay geyim forması(qısaqol köynəkdə)
8. Yay səhra geyim forması (xüsusi kostyum)

Şəkil 3

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində orta və böyük rəis heyəti üçün geyim formalarının təsviri

### 2. Daxili xidmət



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Gündəlik qış geyim forması (isti gödəkcədə)
3. Yaz-payız geyim forması (plaş-paltoda)
4. Parad-çıxış geyim forması
5. Gündəlik geyim forması
6. Gündəlik yay geyim forması(qısaqol köynəkdə)
7. Yay səhra geyim forması (xüsusi kostyum)

**Şəkil 4**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində sıravi və kiçik rəis heyəti üçün geyim formalarının təsviri

### 1. Polis




Şəkil 5

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində sıravi və kiçik rəis heyəti üçün geyim formalarının təsviri

### 2. Daxili xidmət



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Gündəlik qış geyim forması (isti gödəkcədə)
3. Yaz-payız geyim forması (plaş-paltoda)
4. Parad-çıxış geyim forması
5. Gündəlik geyim forması
6. Gündəlik yay geyim forması (qısaqol köynəkdə)
7. Yay səhra geyim forması (xüsusi kostyum)

Şəkil 6

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində qadın sıravi, kiçik, orta və böyük rəis heyəti üçün geyim formalarının təsviri

### 1. Polis



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Gündəlik qış geyim forması (isti gödəkcədə)
3. Yaz-payız geyim forması (plaş-paltoda)
4. Parad-çıxış geyim forması
5. Gündəlik geyim forması (rəis heyəti üçün)
6. Gündəlik geyim forması (sıravi heyət üçün)
7. Gündəlik yay geyim forması (qısaqol köynəkdə)
8. Yay səhra geyim forması (xüsusi kostyum)

Şəkil 7

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində qadın sıravi, kiçik, orta və böyük rəis heyəti üçün geyim formalarının təsviri

### 2. Daxili xidmət



1. Qış parad-çıxış geyim forması (isti paltoda)
2. Gündəlik qış geyim forması (isti gödəkcədə)
3. Yaz-payız geyim forması (plaş-paltoda)
4. Parad-çıxış geyim forması
5. Gündəlik geyim forması (rəis heyəti üçün)
6. Gündəlik geyim forması (sıravi heyət üçün)
7. Gündəlik yay geyim forması (qısaqol köynəkdə)
8. Yay səhra geyim forması (xüsusi kostyum)

Şəkil 8

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində ali rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### 1. Polis generalı üçün



1. Qaragül xəzindən isti qulaqlı papaq



2. Parad furajkası



3. Gündəlik furajka



4. Yay səhra furajkası (xüsusi kostyumun)




Şəkil 9

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində ali rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### 2. Daxili xidmət generalı üçün



1. Qaragül xəzindən isti qulaqlı papaq



2. Parad furajkası



3. Gündəlik furajka



4. Yay səhra furajkası (xüsusi kostyumun)




Şəkil 10

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### Orta və böyük rəis heyəti üçün
### 1. Polis


1. İsti qulaqlı papaq


2. Gündəlik və parad furajkası


3. Gündəlik və parad furajkası (qadın üçün)


4. Yay səhra furajkası (xüsusi kostyumun)



Şəkil 11

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### Orta və böyük rəis heyəti üçün
### 2. Daxili xidmət



1. İsti qulaqlı papaq



2. Gündəlik və parad furajkası



3. Gündəlik və parad furajkası (qadın üçün)



4. Yay səhra furajkası (xüsusi kostyumun)



Şəkil 12

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### Müdavim, sıravi və kiçik rəis heyəti üçün

### 1. Polis



1. İsti qulaqlı papaq
2. Parad furajkası
3. Parad furajkası (qadın üçün)
4. Gündəlik furajka
5. Gündəlik beret (qadın üçün)
6. Yay səhra furajkası (xüsusi kostyumun)




Şəkil 13

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri

### Müdavim, sıravi və kiçik rəis heyəti üçün
### 2. Daxili xidmət



1. İsti qulaqlı papaq



2. Parad furajkası



3. Parad furajkası (qadın üçün)



4. Gündəlik furajka



5. Gündəlik beret (qadın üçün)



6. Yay səhra furajkası (xüsusi kostyumun)




Şəkil 14

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri**




Şəkil 15

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi sistemində müdavim, sıravi, kiçik, orta və böyük rəis heyəti üçün baş geyimləri və digər atributların təsviri



Polis əməkdaşları üçün bel kəməri

Şəkil 16

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 30 iyun, № 6.- S.2562-2574.